61. Sənədlərin rəsmiləşdirilməsi zamanı təsdiqetmə qrifinin elementi necə sözlə ifadə olunur?

A) "Nömrə" və ya "Nömrəli"

B) "Tapşırılsın" və ya "Nəzərinə çatdırılsın"

C) "Qərara alındı"

D) "Təsdiq edilmişdir" və ya "Təsdiq edirəm"

E) "Surət" və ya "Düzdür"

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

62. Sərəncam təşkilat rəhbəri tərəfindən imzalanır və müvafiq kitabda təqvim ili çərçivəsində xronoloji ardıcıllıqla qeydə alınır. Bəs həmin kitab üzrə verilən qeyd nömrəsi sərəncamın nəyi hesab olunur?

A) Tarixi

B) Maddəsi

C) Dərkənarı

D) Nömrəsi

E) Bəndi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

63. Şərh və sərəncam hissələrindən ibarət olan əmrin sərəncam hissəsi mətn dayandırılmadan hansı sözlərlə başlanır?

A) "Nəzərinə çatdırılsın"

B) "Təsdiq edilsin"

C) "Qərara alır"

D) "Təklif olunsun"

E) "Əmr edirəm"

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

64. Təhlil əsasında sənədlərin icrasını sürətləndirmək və icra intizamını yüksəltmək məqsədi ilə təşkilatlarda işlənib hazırlanır:

A) Qanunlar

B) Nizamnamələr

C) Metodik göstərişlər

D) Tədbirlər planı

E) Əsasnamələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

65. Teleqramlarda yeni sətirdən qeyd edilən imza nə ilə təsdiq olunur?

A) Möhürlə

B) Qoşma ilə

C) Bildirişlə

D) Sistemlə

E) Xüsusi qriflə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

66. Təşkilat rəhbəri tərəfindən imzalandıqdan sonra sərəncam müvafiq kitabda təqvim ili çərçivəsində necə qeydə alınır?

A) Məzmuna görə

B) Xronoloji ardıcıllıqla

C) Nizamsız şəkildə

D) Əlifba sırası ilə

E) Xüsusi qaydada

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

67. Təşkilatın dərkənar qoymuş vəzifəli şəxsinin vəzifəsi, soyadı, adı və atasının adı, müraciətin üzərindəki dərkənarın məzmunu, tarixi, icraçının (icraçıların) soyadı, adı, atasının adı və vəzifəsi qeyd olunan qrafa necə adlanır?

A) "Xidməti qeydlər"

B) "Qısa məzmun"

C) "Dərkənar"

D) "Əvvəlki müraciətlər"

E) "Nəzarət"

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

68. Təşkilatlarda müraciətlərə baxılması və onların cavablandırılması ilə bağlı doğru olmayan bəndi qeyd edin:

A) Müraciətin baxılmamış saxlanılmasına əsas verən hallar aradan qaldırıldıqda, təşkilat ona baxılmanı təmin etməlidir

B) Yuxarı dövlət orqanından baxılmanın nəticəsi barədə məlumat vermək tələbi ilə daxil olan müraciətlər bir qayda olaraq kargüzarlıq xidmətinin göstərişi ilə nəzarətə götürülür

C) Vətəndaş yuxarı dövlət orqanından şikayət verdiyi halda onun müraciətinin baxılmaq və cavablandırılmaq üçün aşağı dövlət orqanına göndərilməsinə yol verilmir

D) Yuxarı dövlət orqanından vətəndaşların müraciətlərini aidiyyəti üzrə baxılmaq üçün qanunazidd hərəkətindən şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərmək qadağandır

E) Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın elektron qaydada aparıldığı təşkilatlarda müraciətin nəzarətdə olması elektron informasiya sistemində müvafiq qeyd aparılmaqla göstərilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

69. Təşkilatlarda müraciətlərin qeydiyyata alınması üçün onların üzərinə vurulur:

A) Xüsusi möhür

B) "Nəzarətdədir" sözü

C) İndeks

D) Qeydiyyat ştampı

E) "Təkrar" qeydi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

70. Təşkilatlarda sənədlərin dövriyyəsinin təşkilinə uyğun olaraq, hansı korrespondensiya geri qaytarılır?

A) Daxil olan korrespondensiya

B) Şəxsi korrespondensiya

C) Səhvən gətirilən korrespondensiya

D) Təhvil verilməli olan korrespondensiya

E) İlkin korrespondensiya

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

71. Təşkilatlarda tərtib edilən sərəncamlarda sərəncam hissəsi şərh hissəsindən abzasla ayrıldıqda, variantlardan hansı birində yazılan fellə ifadə oluna bilməz?

A) "Təklif edilsin"

B) "Tapşırılsın"

C) "Nəzərinə çatdırılsın"

D) "Təsdiq edilsin"

E) "Qərara alır"

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

72. Təşkilatlarda vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması ilə bağlı aşağıdakı müddəalardan hansı biri doğrudur?

A) Təkrar müraciətin yuxarı sağ küncündə və qeydiyyat-nəzarət vərəqəsində "Təkrar" qeydi yazılır və bütün əvvəlki yazışmalar ləğv edilir

B) Qeydiyyat-nəzarət vərəqələri bir nüsxəsi kargüzarlıq xidmətində qalmaq şərtilə, icraçıların sayından asılı olaraq tərtib edilir

C) Eyni müraciət edən şəxsin eyni məsələ ilə bağlı digər təşkilata və ya onun vəzifəli şəxslərinə etdiyi müraciətlər təşkilatlarda qeydiyyata alınmır

D) Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərin qəbulu və qeydiyyatı vətəndaşların digər müraciətləri kimi icra olunur

E) Vətəndaşların müvafiq qanuna əsasən aidiyyəti üzrə göndərilən müraciətləri baxılmaq üçün müxtəlif müraciətə baxan subyektə daxil olduqda qeydiyyata alınır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

73. Vətəndaşın müraciəti baxılmaq üçün aidiyyəti üzrə göndərildikdə, müşayiət məktubunun surəti həmin gün verilir:

A) Təşkilatın kargüzarlıq xidmətinə

B) Ümumi şöbəyə

C) Təşkilatın arxiv bölməsinə

D) İnformasiya sektoruna

E) Daxili nəzarət idarəsinə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

74. Vətəndaşın müraciəti ilə bağlı cavab məktubu xarici ölkə ərazisinə göndərildikdə, təşkilatın hansı dildə yazılmış cavab məktubuna müraciətin daxil olduğu xarici dilə qeyri-rəsmi tərcüməsini də əlavə etmək hüququ vardır?

A) Fransız və ingilis dilində

B) Dövlət dilində

C) İngilis dilində

D) Müvafiq xarici dildə

E) Rus dilində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

75. Vətəndaşın qəbul zamanı təqdim etdiyi hansı müraciət "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"na uyğun olaraq qəbul edilir və qeydiyyata alınır?

A) Şifahi

B) Ümumi

C) Yazılı

D) Kollektiv

E) Xüsusi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

76. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın elektron qaydada aparıldığı təşkilatlarda elektron formada, digər təşkilatlarda əl ilə, yaxud elektron formada tərtib edilən qeydiyyat-nəzarət vərəqələrinin bir nüsxəsi qalır:

A) İnformasiya bölməsində

B) Daxili nəzarət idarəsində

C) Protokol sektorunda

D) Kargüzarlıq xidmətində

E) Ümumi şöbədə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

77. Vətəndaşların müraciətləri üzrə nəzarətə cavabdeh olan vəzifəli şəxsin imzası necə adlanır?

A) Nəzarətdən çıxarılmışdır

B) Qısa məzmun

C) İlkin cavab

D) Nəzarətçinin imzası

E) Xidməti qeyd

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

78. Vətəndaşların müraciətlərinə dair sənədlərin saxlanılma müddətləri "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla hər bir təşkilat tərəfindən minimum neçə il müəyyən edilir?

A) 5 il

B) 2 il

C) 4 il

D) 1 il

E) 3 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

79. Vətəndaşların müraciətlərinə icraçılar tərəfindən mahiyyəti üzrə baxıldıqdan sonra həmin müraciətlər, onlarla əlaqədar toplanmış materiallar və qeydiyyat-nəzarət vərəqələri kargüzarlıq xidmətinə qaytarılmalıdır ki, bu zaman həmin müraciətin üzərində qərarı qəbul edən vəzifəli şəxsin hansı dərkənarı olmalıdır?

A) "Baxılmamış saxlanılsın"

B) "Nəzarətdədir"

C) "Qısa məzmun"

D) "İşə alınsın"

E) "Əvvəlki müraciətlər"

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

80. Vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması ilə bağlı aşağıdakı bəndlərdən hansı düzgündür?

A) Əgər daxil olmuş müraciəti göndərən şəxsin ünvanını yalnız zərfdə qeyd olunan ünvan və poçt ştempelinin tarixi əsasında müəyyənləşdirmək olursa, belə müraciətlərin zərfləri saxlanılmır

B) İstirahət, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü daxil olan müraciətlər növbəti üç iş günündən gec olmayaraq qeydiyyata alınır

C) Eyni vətəndaşın eyni məzmunlu yazılı müraciətləri təşkilata eyni tarixdə daxil olduqda, kargüzarlıq xidməti onlara müxtəlif daxilolma nömrəsi verir və qeydiyyat-nəzarət vərəqəsinə yazır

D) Əgər daxil olmuş müraciətin göndərilmə (alınma) vaxtını yalnız zərfdə qeyd olunan ünvan və poçt ştempelinin tarixi əsasında müəyyənləşdirmək olursa, belə müraciətlərin zərfləri saxlanılmır

E) Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın elektron qaydada aparıldığı təşkilatlarda müraciətin kollektiv olması elektron informasiya sistemində müvafiq qeyd aparılmaqla göstərilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

81. Vətəndaşların müvafiq qanunla müəyyən edilmiş tələblərə cavab verən hansı müraciətləri təşkilatlar tərəfindən qəbul edilməli və daxil olduğu gün qeydiyyat-nəzarət vərəqəsində qeydiyyata alınmalıdır?

A) Yalnız şifahi

B) Elektron və yazılı

C) Yazılı və şifahi

D) Yalnız yazılı

E) Şifahi, yazılı və elektron

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

82. Vətəndaşların müvafiq qanunla müəyyən edilmiş tələblərə cavab verən yazılı və şifahi müraciətləri təşkilatlar tərəfindən qəbul edilməli və daxil olduğu gün qeydiyyata alınmalıdır:

A) Elektron bazada

B) Müvafiq kitabda

C) Xüsusi kartotekada

D) İş qovluğunda

E) Qeydiyyat-nəzarət vərəqəsində

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

83. Vətəndaşların xahişi ilə verilən arayışlar kim tərəfindən imzalanaraq təsdiq edilir və müvafiq kitabda qeydə alınır?

A) Təşkilatın rəhbəri

B) Sektor müdiri

C) İcraçılar

D) Şöbə müdiri

E) Xüsusi əməkdaşlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

84. Xarici dildə, habelə sekoqram formasında daxil olan müraciətlərdə müraciət edənə dair məlumatları əldə etmək mümkün olduqda, kargüzarlıq xidməti onların tərcümə olunmasını nə zaman təmin etməlidir?

A) Müraciətin icraçıya təhvil verildikdən sonra

B) Müraciətlər kargüzarlıq sisteminə daxil olduqdan sonra

C) Müraciətlər qeydiyyata alındıqdan sonra

D) Müraciətlər baxılmaq üçün struktur bölməyə verildikdən sonra

E) Müraciətlər qəbul olunduqdan sonra

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

85. Yuxarı dövlət orqanından baxılmanın nəticəsi barədə məlumat vermək tələbi ilə daxil olan müraciətlər, həmçinin müraciətə baxan təşkilatın rəhbərinin göstərişi ilə müraciətlər nəzarətə götürülür. Bu halda qeydiyyat-nəzarət vərəqəsinin bütün nüsxələrinə və müraciətin üzərinə nə ştampı vurulur?

A) "İşə alınsın"

B) "Təkrar"

C) "Baxılmamış saxlanılsın"

D) "Nəzarətdədir"

E) "Qısa məzmun"

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası. AR Prezidentinin 2016-cı il 23iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

86. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən akt hansı subyektlər tərəfindən imzalanır?

A) Aktda göstərilən məsələlərə aidiyyəti olan bütün şəxslər tərəfindən

B) Aktın tərtib olunduğu müəssisənin məsul əməkdaşları tərəfindən

C) Yalnız hakimiyyət səlahiyyəti almış şəxslər tərəfindən

D) Aktın tərtib olunmasında iştirak edən bütün şəxslər tərəfindən

E) Aktın tərtibinə dair müvafiq göstəriş verən şəxslər tərəfindən

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

87. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən aşağıdakı müddəalardan biri səhvdir:

A) Təşkilatların və struktur bölmələrinin rəhbərləri dəyişdirildikdə, işlər və ya icrada olan sənədlər akt üzrə qəbul edilir və təhvil verilir. Aktın bir nüsxəsi kargüzarlıq xidmətində saxlanılır

B) İki və ya daha artıq təşkilat adından hazırlanan sənədlər blanksız tərtib edilir. Həmin sənədlər təşkilat rəhbərinin imzası və təşkilatın gerbli möhürü ilə təsdiqlənir

C) Bir qayda olaraq, sənədlərin mətnləri iki hissədən ibarət olur. Birinci hissədə sənədin hazırlanması üçün əsas götürülmüş faktların və hadisələrin təsviri verilir. İkinci hissədə nəticələr, təkliflər, qərarlar və sərəncamlar ifadə olunur

D) Sənədin düzgün tərtibi, məzmununun aydın ifadə edilməsi və üslubu, tapşırığın vaxtında və keyfiyyətlə yerinə yetirilməsi bilavasitə icraçının vəzifəsidir

E) İşdən çıxarıldıqda və ya başqa işə keçirildikdə, icraçı onda olan işləri və sənədləri bu vəzifəyə yeni təyin edilən və ya həmin vəzifəni müvəqqəti icra edən şəxsə müvafiq əmrlə protokol tərtib edilməklə təhvil verməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

88. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən sənədin tarixi hesab edilir:

A) Sənədin qeydə alınmasının tarixi

B) Sənədin göndərilməsinin tarixi

C) Sənədin qeydə alınmasının və ya təsdiq edilməsinin tarixi

D) Sənədin qəbul edilməsinin tarixi

E) Sənədin imzalanmasının və ya təsdiq edilməsinin tarixi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

89. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən sənədlərin hazırlanması ilə bağlı ümumi tələblərdən biri deyildir:

A) Sənədlərin hazırlanması üçün "işlətmək üçün kağız formatları" - 9327 - 60 dövlətlərarası standart üzrə A4 (210x297 mm) və A5 (210x148 mm) formatlı blank və kağızlardan istifadə edilir

B) Sənəd dövriyyəsi böyük olan təşkilatlarda ayrı-ayrı sənəd növləri üçün blanklar tətbiq edilir və onların üzərində mətbəə üsulu ilə sənəd növünün adı (qərar, protokol, əmr və s.) yazılır

C) Təşkilatlarda tez-tez təkrarlanan birtipli sənədlər (bildiriş, məktub və s.) tərtib edilərkən sənədlərin mətbəə üsulu ilə hazırlanan trafaret mətnli blankları tətbiq edilə bilər

D) Sənədin imzalanmasının və ya təsdiq edilməsinin tarixi sənədin tarixi hesab edilmir. Sənədin tarixi kargüzarlıq xidməti tərəfindən qoyulur

E) Sərəncam mahiyyətli sənədlər üçün blanklar "Sərəncam sənədləri sistemi. Formulyar-nümunə" - 6.38-90 dövlətlərarası standart üzrə hazırlanır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

90. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən təşkilatlarda kargüzarlığın aparılması kim tərəfindən həyata keçirilir?

A) Dəftərxana və ya xüsusi olaraq bu məqsəd üçün ayrılan əməkdaşlar

B) İcraya nəzarət və kargüzarlıq xidməti

C) Ümumi və İnsan resursları şöbəsinin işçiləri

D) Təşkilatın struktur bölmələrinin rəhbərləri

E) Dəftərxana və sənədlərin qeydiyyatı, icrası və uçotu xidməti

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

91. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən vərəqələr bölmələrdə hansı qaydada yerləşdirilir?

A) Məlumat kartotekasının bölmələrinə uyğunluğuna görə

B) Əhəmiyyətlilik dərəcəsinə və cavab alınmasının gözlənilən tarixlərinə görə

C) Təşkilata daxil olma tarixinə və şərtlərinə görə

D) İcra müddətlərinə və cavab alınmasının gözlənilən tarixlərinə görə

E) Təşkilatdaxili müəyyən edilmiş konket qaydalara görə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

92. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a görə aşağıdakı bəndlərdən biri səhvdir:

A) Sənədlər, bir qayda olaraq, icra edildikdən sonra nəzarətdən çıxarılır. Sənədin icrası və nəzarətdən çıxarılması haqqında məlumat nəzarət vərəqəsində qeyd edilir

B) Sənəd dövriyyəsi kiçik olan təşkilatlarda nəzarət daxil olan, göndərilən və daxili sənədlərin qeydiyyat kitablarında həyata keçirilir

C) Əgər icra sənədləşdirilməmişdirsə, bu barədə nəzarət vərəqəsinin "icra haqqında qeyd" sütununda məlumat yazılır

D) Nəzarətdə olan sənədlərin icrası haqqında təşkilatın rəhbərliyinə həftədə 1 dəfə məlumat verilir

E) Təhlil əsasında sənədlərin icrasını sürətləndirmək və icra intizamını yüksəltmək məqsədi ilə müvafiq tədbirlər planı işlənib hazırlanır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

93. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a görə əmrin şərh hissəsində hansı normalar ifadə olunur?

A) Əmrin qəbul edilməsi tarixi

B) Əmrin qeydiyyat nömrəsi

C) Görülməli tədbirlər

D) Əmr verilməsi üçün əsas götürülən faktlar

E) Əmrin qəbul edilməsinin proseduru və icrası

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

94. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a görə sənəd hansı məqsədlə rəsmiləşdirilməlidir?

A) Ona müvafiq status verilməsinin təmin edilməsi məqsədilə

B) Ona qeydə alınma tarixi və nömrəsi verilməsi məqsədilə

C) Onun aidiyyəti üzrə göndərilməsi məqsədilə

D) Onun icrasının təmin edilməsi məqsədilə

E) Ona rəsmi xarakter və hüquqi qüvvə verilməsi məqsədilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

95. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a görə sənəddə tarixin elementləri hansı qaydada yazılır?

A) Eyni sətirdə ardıcıllıqla il, ayın tarixi, ay

B) Eyni sətirdə ardıcıllıqla ay, ayın tarixi, il

C) Eyni sətirdə ardıcıllıqla ayın tarixi, ay, il

D) Eyni sətirdə ardıcıllıqla ay, il, ayın tarixi

E) Eyni sətirdə ardıcıllıqla ayın tarixi, il, ay

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

96. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a görə variantlardan hansında vəzifə adı düzgün yazılmamışdır?

A) Azərbaycan Respublikasının Prezidenti

B) Azərbaycan Respublikasının Baş naziri

C) Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti

D) Bakı Dövlət Universitetinin rektoru

E) Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

97. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a müvafiq olaraq aşağıdakı hallardan hansında sənədin razılaşdırılması tələb olunur?

A) Sənədin yuxarı təşkilata göndərilməsinə zərurət yarandıqda

B) Sənəd aidiyyəti üzrə nəzarətə götürüldükdə və bununla bağlı xüsusi tapşırıq olduqda

C) Sənədin məqsədəuyğunluğunu və ya əsaslılığını qiymətləndirmək zəruri olduqda

D) Sənədin icra müddəti onun icrası üçün kifayət etmədikdə

E) Sənədin icrası bir neçə icraçıya tapşırıldıqda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

98. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a müvafiq olaraq hansı sənədlər baxılmaq və icra edilmək üçün ilk növbədə verilir?

A) Yuxarı dövlət orqanlarından gələn sənədlər

B) Teleqramlar və telefonoqramlar

C) Əmrlər və sərəncamlar

D) İcra məqsədilə daxil olan sənədlər

E) Teleqramlar və digər təcili sənədlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

99. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a müvafiq olaraq hansı sənədlərin qeydə alınması tələb olunmur?

A) Bilavasitə təşkilatın vəzifələrinin həyata keçirilməsi üçün zəruri olmayan sənədlərin

B) Vətəndaşların təkliflərinin və sorğularının icra edilməsi ilə bağlı daxil olan sənədlərin

C) Beynəlxalq təşkilatlara göndərilən sənədlərin

D) Bilavasitə tapşırıqların icrasına aid tərtib edilmiş sənədlərin

E) Normativ hüquqi aktların icrası ilə bağlı daxil olan sənədlərin

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

100. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun olaraq hansı hallarda qərarda şərh hissəsi olmaya bilər?

A) Görülməli tədbirlər mühüm əhəmiyyət kəsb etmədikdə

B) Görülməli tədbirlərin qısa müddət ərzində icrası tələb olunduqda

C) Görülməli tədbirlər yuxarı dövlət orqanının tapşırığı ilə olmadıqda

D) Görülməli tədbirlər təxirəsalınmaz xarakterli olduqda

E) Görülməli tədbirlərin izahına ehtiyac olmadıqda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

101. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın tələblərinə riayət edilməsinə ümumi nəzarəti hansı orqan həyata keçirir?

A) Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Regional və yerli məsələlərlə iş şöbəsi

B) Yerli özünüidarəetmə orqanlarının müvafiq struktur bölmələri

C) Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

D) Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi

E) Mərkəzi icra hakimiyyəti orqanlarının kargüzarlıq xidmətlərinin rəhbərləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

102. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qadağaya görə vətəndaşın müraciətini aidiyyəti üzrə göndərmək mümkün olmadıqda, bu halda aşağıdakılardan hansı biri icra edilir?

A) Müraciət araşdırılmır və imtina edilməsinin səbəbləri ilə bağlı heç bir cavab verilmir

B) Müraciətin yerindəcə cavablandırılması üçün vətəndaş qəbula dəvət edilir və ona məlumat verilir

C) Müraciətin araşdırılması təhlükəsizlik orqanına göndərilir və bu barədə müraciət edənə məlumat verilir

D) Vətəndaşa qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ izah olunur

E) Müraciətin təkrar araşdırılması üçün yuxarı dövlət orqanına müraciət etmək hüququ izah olunur

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

103. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı mülahizələrdən hansı biri doğru deyildir?

A) Vətəndaşlar müraciət etmək hüququnu sərbəst və könüllü həyata keçirirlər

B) Vətəndaşın öz müraciət hüququnu həyata keçirməsi digər şəxslərin hüquqlarını və azadlıqlarını pozmamalıdır

C) İrqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnu məhdudlaşdırmaq qadağandır

D) Bütün fiziki və hüquqi şəxslərin şəxsən və ya nümayəndə vasitəsilə yazılı və ya şifahi formada, fərdi və ya kollektiv şəkildə müraciət etmək hüququ vardır

E) Vətəndaşlar müraciətlərini həmin məsələyə baxılmasını bilavasitə təmin etməli olan müraciətə baxan subyektlərə və ya onların vəzifəli şəxslərinə yazılı formada təqdim edir və ya şifahi formada bildirirlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

104. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı mülahizələrdən hansı biri doğru deyildir?

A) Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciət daxil olduqda dövlət orqanının rəhbəri müraciət üzrə xidməti araşdırma təyin edir

B) Xidməti araşdırmanı müvafiq dövlət orqanında daxili nəzarət xidməti aparır

C) Xidməti araşdırma 20 iş günü müddətində başa çatdırılmalı və nəticəsi barədə məlumat dövlət orqanının rəhbərinə təqdim olunmalıdır

D) Əlavə materialların və məlumatların əldə edilməsi tələb olunduqda, dövlət orqanı rəhbərinin bu müddəti 20 iş günü uzatmaq hüququ vardır

E) Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməlidirlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

105. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı mülahizələrdən hansı doğru deyildir?

A) Müraciət etmiş şəxsə qəbul olunmuş qərar haqqında əsaslandırılmış cavab verilməklə həmin qərardan şikayət etmək hüququ izah olunur

B) Vətəndaşın dövlət orqanı rəhbərinin qərarından yuxarı dövlət orqanına şikayət vermək hüququ vardır. Bu müddəa vətəndaşın dövlət orqanı rəhbərinin qərarından məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırır

C) Barəsində məlumat verilən şəxsə, həmçinin araşdırmanın nəticəsində birbaşa və ya dolayısı ilə maraqlı olan şəxslərə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatın araşdırılması həvalə edilə bilməz

D) Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciət daxil olduqda dövlət orqanının rəhbəri müraciət üzrə xidməti araşdırma təyin edir

E) Müvafiq dövlət orqanında daxili nəzarət xidməti tərəfindən aparılan xidməti araşdırma 20 iş günü müddətində başa çatdırılmalı və nəticəsi barədə məlumat dövlət orqanının rəhbərinə təqdim olunmalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

106. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakılardan hansı vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsiplərindən biri kimi müəyyənləşdirilməmişdir?

A) Qanunçuluq

B) Fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması

C) Müraciətlərə dair tələblərin vahidliyi

D) Vətəndaşların müraciət etmək hüququ ilə dövlət maraqlarının uzlaşdırılması

E) Ədalətlilik

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

107. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakılardan hansı vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsiplərindən biri kimi müəyyənləşdirilməmişdir?

A) Fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması

B) Müraciətlərə baxılmasında ayrı-seçkiliyə və süründürməçiliyə yol verilməməsi

C) Müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin fəaliyyətində şəffaflığın təmin edilməsi

D) Vətəndaşların müraciət etmək hüququ ilə təşkilatın maraqlarının uzlaşdırılması

E) Müraciətlərə dair tələblərin vahidliyi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

108. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlıq işinin aparılmasına nəzarəti həyata keçirir:

A) Yerli özünüidarəetmə orqanı

B) Beynəlxalq təşkilatlar

C) Müvafiq icra hakimiyyəti orqanı

D) Fiziki şəxslər

E) Bələdiyyələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

109. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən kağız üzərində və ya elektron formada tərtib edilmiş müraciət:

A) Elektron müraciət

B) Kollektiv müraciət

C) Yazılı müraciət

D) Fərdi müraciət

E) Şifahi müraciət

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

110. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşın qəbulu zamanı onun müraciətində qaldırılan məsələnin digər müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin səlahiyyətinə aid olduğu aşkar edilərsə, bu halda:

A) Müraciət edən qəbuldan kənarlaşdırılır

B) Aidiyyəti dövlət orqanınının və subyektin nümayəndəsinin qəbuluna yazılır

C) Müraciət edən şəxsə aidiyyəti üzrə müraciət etmə qaydası izah olunur

D) Yazılı şəkildə müraciət etməsi tövsiyə olunur

E) Müraciətin araşdırılması müvafiq qaydada davam etdirilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

111. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa görə aşağıda qeyd olunanlardan hansı yanlışdır?

A) Müraciətə baxan subyektin rəsmi internet saytına daxil edilən müraciətdə vətəndaşın elektron və yaxud poçt ünvanı göstərilməlidir

B) Elektron müraciət həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir və ya onun rəsmi internet saytına daxil edilir

C) Müraciət hüquqi şəxslərin firma rekvizitləri olan blankda göndərildiyi, yaxud fiziki şəxsin əlaqə məlumatlarından ən azı birinin göstərildiyi hallarda anonim sayılır

D) Müraciətin mətni oxunaqlı olmalı, müraciətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir. Müraciətin mətnində təhqir və böhtana yol verilməməlidir

E) Anonim müraciətlər müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilmir və onlara baxılmır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

112. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa görə aşağıdakı müddəalardan hansı biri doğrudur?

A) Müəyyən hallar istisna olmaqla, vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır

B) Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətlərinə daxil olduğu gündən etibarən ən geci 5 iş günü ərzində baxılır

C) Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə gün ərzində, bu mümkün olmadıqda, müraciətin daxil olduğu gündən iki gün müddətində baxılmalıdır

D) "Vətəndaşların müraciətləri haqqında" AR Qanununda göstərilən müddətlərin axımı müraciətin müraciətə baxan subyektdə qeydiyyata alındığı gündən başlanır

E) Müraciətə baxılması üçün əlavə məlumatların əldə edilməsi və ya aidiyyəti üzrə sorğu göndərilməsi tələb edildikdə, müraciətə baxan subyektin vəzifəli şəxsinin müraciətə baxılması müddətini ən çoxu 30 gün uzatmaq hüququ vardır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

113. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa görə aşağıdakı mülahizələrdən hansı yanlışdır?

A) Elektron müraciət həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir və ya onun rəsmi internet saytına daxil edilir

B) Müraciətə baxan subyektin rəsmi internet saytına daxil edilən müraciətdə vətəndaşın elektron və ya poçt ünvanı göstərilməlidir

C) Elektron sənəd formasında göndərilən müraciətlər əl imzası və ya elektron imza ilə təsdiq olunmalıdır

D) Vətəndaşlar müraciətlərini həmin məsələyə baxılmasını bilavasitə təmin etməli olan müraciətə baxan subyektlərə və ya onların vəzifəli şəxslərinə yazılı formada təqdim edir və ya şifahi formada bildirirlər

E) Müraciətin mətni oxunaqlı olmalı, müraciətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir. Müraciətin mətnində təhqir və böhtana yol verilməməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

114. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa görə aşağıdakı mülahizələrdən hansı yanlışdır?

A) Müraciətə baxan subyektlərin rəhbərlərinin və digər vəzifəli şəxslərinin səyyar və videoqəbullar, o cümlədən onlayn konfranslar keçirmək hüququ vardır. Bu cür qəbul zamanı təqdim edilən müraciətlərin qəbul edilməsi, qeydiyyatı və ona baxılması qaydası vətəndaşların qəbul edilməsi qaydasına uyğun olaraq həyata keçirilir

B) Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilən və təminat verilən qaydada vətəndaşların yazılı və şifahi formada təkliflər vermək, ərizə ilə müraciət etmək, vəzifəli şəxslərin qanunazidd hərəkətlərindən şikayət etmək hüquqlarının sərbəst həyata keçirilməsi üçün şərait yaradılmasını təmin etməlidirlər

C) Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməli, onlara "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada və müddətlərdə baxmalı və cavab verməlidirlər

D) Dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətinin və ya işinin tənqid edilməsi ilə bağlı, yaxud vətəndaşın və ya digər şəxslərin hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədi ilə edilən müraciətə görə vətəndaşı təqib etmək qadağandır

E) Azərbaycan Respublikasının Baş prokuroru prokurorluğa daxil olan müraciətlərə baxılmanın nəticələri barədə ildə bir dəfədən az olmayaraq müvafiq icra hakimiyyəti orqanına məlumat verir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

115. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət orqanının (və ya onun vəzifəli şəxsinin) qanunazidd hərəkəti (hərəkətsizliyi) barədə prokurorluq orqanlarına daxil olmuş müraciətlərə hansı qaydada baxılır?

A) Yalnız "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

B) "Vətəndaşların müraciətləri haqqında" və "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunlarına uyğun olaraq

C) Yalnız Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq

D) "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

E) Yalnız Azərbaycan Respublikasının Cinayət Məcəlləsi və Cinayət Prosessual Məcəlləsinə uyğun olaraq

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

116. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa görə müraciət edən şəxs kimdir?

A) Fiziki şəxs

B) Hüquqi şəxs

C) Fiziki və ya hüquqi şəxs

D) Vəzifəli şəxs

E) Fiziki, hüquqi və vəzifəli şəxs

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

117. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, vətəndaşların qəbul edilməsi qaydası ilə bağlı yanlış bəndi müəyyənləşdirin.

A) Müraciətə baxan subyektlər vətəndaşların qəbul edilməsini vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ayda iki dəfədən az olmamaqla təmin etməlidirlər

B) Vətəndaşları müraciətə baxan subyektlərin rəhbərləri və ya digər vəzifəli şəxsləri qəbul edirlər

C) Vətəndaşın müraciəti ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görülməsi tələb edildikdə müraciətə baxan subyektin rəhbəri və ya digər vəzifəli şəxsləri onları dərhal qəbul etməlidirlər

D) Vətəndaş şəxsiyyətini təsdiq edən sənəd və yaxud şəxsiyyətini müəyyən edən rekvizitlər və ya elektron imza olduqda elektron xidmətlər vasitəsilə qəbula yazılır

E) Vətəndaşlar əvvəlcədən məlumat verilən günlərdə və saatlarda qəbul edilməlidirlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

118. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təklif nə deməkdir?

A) Qanunların və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, dövlət və bələdiyyə orqanlarının və digər müraciətə baxan subyektlərin fəaliyyətinin yaxşılaşdırılması, elm, təhsil, mədəniyyət, hüquq, sosial-iqtisadi, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli barədə edilən müraciət

B) Vətəndaşlara məxsus hüquq və azadlıqların həyata keçirilməsi, həmçinin pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət

C) Müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə vətəndaşın soyadı, adı, atasının adı, ünvanı, şəxsi və ya elektron imzası (hüquqi şəxslərə münasibətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, onun rəhbərinin imzası) olmadan yazılı formada göndərilən müraciət

D) Vətəndaşların fərdi və kollektiv qəbulu zamanı və ya müraciətə baxan subyektin nümayəndəsinin iştirakı ilə canlı yayımlanan teleradio proqramları zamanı, habelə telefon müraciət xidməti vasitəsilə edilən müraciət

E) Müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı (o cümlədən elektron) formada göndərilən (təqdim edilən) və ya şifahi formada edilən fərdi və ya kollektiv təklif, ərizə, şikayət

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

119. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən hallarda müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi müraciət edən şəxsə səbəblər göstərilməklə müraciətin (anonim müraciət istisna olmaqla) baxılmamış saxlanılması barədə hansı müddətdə məlumat verir?

A) Üç iş günündən gec olmayaraq

B) Beş iş günündən gec olmayaraq

C) Üç gündən gec olmayaraq

D) Beş gündən gec olmayaraq

E) Yeddi iş günündən gec olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

120. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən hallarda müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi müraciət edən şəxsə şifahi müraciətin baxılmamış saxlanılması üçün əsas olduqda hansı müddətdə məlumat verir?

A) Üç iş günündən gec olmayaraq

B) Beş iş günündən gec olmayaraq

C) Dərhal

D) Beş gündən gec olmayaraq

E) Üç gündən gec olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

121. Aktı hazırlayanların və bu işdə iştirak edənlərin xüsusi rəyləri olduqda, həmin rəylər hansı qaydada yazılır?

A) Həmin rəylər rəy sorğusu anketində yazılır

B) İmzalardan yuxarıda və ya ayrıca vərəqdə yazılır

C) Həmin rəylər üzrə ayrıca akt yazılır

D) Xüsusi rəylərə aid blankda yazılır

E) İmzalardan aşağıda və ya ayrıca vərəqdə yazılır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

122. Arayışların və məlumat vərəqələrinin hazırlanması və tərtib edilməsi ilə bağlı müddəalardan biri düzgün deyil:

A) Arayışın və məlumat vərəqəsinin mətni iki hissədən ibarət olmalıdır

B) Arayışda və ya məlumat vərəqəsində verilən məlumatın aid olduğu tarix və dövr başlığa daxil edilməlidir

C) Arayışlar və məlumat vərəqələri A5 formatlı vərəqlərdə çap olunur, kargüzarlıq xidmətinin rəhbəri tərəfindən imzalanır

D) Vətəndaşların xahişi ilə verilən arayışlar ümumi blanklarda və ya trafaret mətnli blanklarda tərtib olunur

E) Arayışın birinci hissəsində sənədin hazırlanması üçün əsas götürülən faktlar, ikinci hissəsində nəticələr və təkliflər yazılır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

123. Arxivə təhvil verilməli olmayan sənədlər hansı qaydada məhv edilir?

A) Təşkilat rəhbərinin qərarı ilə və ekspertiza komissiyasının təsdiq etdiyi akt üzrə

B) Ekspertiza komissiyasının qərarı ilə və təşkilat rəhbərinin təsdiq etdiyi akt üzrə

C) Ekspertiza komissiyasının sərəncamı ilə və təşkilat rəhbərinin təsdiq etdiyi akt üzrə

D) Təşkilat rəhbərinin qərarı ilə və təşkilat rəhbərinin təsdiq etdiyi akt üzrə

E) Təşkilat rəhbərinin sərəncamı ilə və ekspertiza komissiyasının təsdiq etdiyi akt üzrə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

124. Aşağıdakılardan biri məlumat kartotekasının birinci və ikinci hissələrinin bölmələridir:

A) Qeydiyyat tarixi

B) Ayın günləri

C) Sıra nömrəsi

D) İlin ayları

E) Həftənin günləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

125. Aşağıdakılardan hansı təşkilatlarda elektron sənədlərin hazırlanmasına dair ümumi tələblərə aid deyil?

A) Elektron sənəd dövriyyəsi sistemi tətbiq olunan təşkilatlarda kağız daşıyıcıda daxil olan sənədlər və onların əlavələri skan edilərək, eyni formatda olan vahid elektron fayla çevrilir

B) Elektron sənəd "Unicode" standartını, "UTF-8" formatını dəstəkləməlidir

C) Elektron sənədin cədvəl, təqdimat, mətn, qrafik və arxivləşdirmə redaktorlarında oxunma və redaktə olunma imkanları olmalıdır

D) Elektron sənəd "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsi ilə müəyyən edilmiş quruluşda olmalıdır

E) Elektron sənəd "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən tələblərə cavab verməlidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

126. Aşağıdakılardan hansı vətəndaşların müraciətlərinə dair tələblərdən deyildir?

A) Vətəndaşlar müraciətlərini həmin məsələyə baxılmasını bilavasitə təmin etməli olan müraciətə baxan subyektlərə və ya onların vəzifəli şəxslərinə yazılı formada təqdim edir və ya şifahi formada bildirirlər

B) Kağız üzərində yazılı müraciəti fiziki şəxs və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndəsi imzalamalı və tarix qoymalıdır

C) Anonim müraciətlər müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilir və onlara baxılır

D) Yazılı müraciət nümayəndə vasitəsilə təqdim edildikdə, müraciətə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənədin surəti əlavə olunmalıdır

E) Elektron müraciət həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir və ya onun rəsmi internet saytına daxil edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

127. Azərbaycan Respublikasında vətəndaşların müraciətlərinə hansı dildə cavab verilir?

A) Azərbaycan və ingilis dillərində

B) Dövlət dilində

C) Müvafiq xarici dildə

D) Rus dilində

E) Beynəlxalq dildə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

128. Bilavasitə təşkilatın vəzifələrinin həyata keçirilməsi üçün zəruri olmayan sənədlər hansı bölmələrdə uçota alınır?

A) Ümumiyyətlə uçota alınmırlar

B) Təşkilatın müvafiq bölmələrində

C) Yalnız kargüzarlıq xidmətində

D) Milli Arxiv İdarəsində

E) Beynəlxalq əməkdaşlıq şöbəsində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

129. Daxil olan korrespondensiyanın qəbulu və ilkin qaydada işlənməsi təşkilatlarda hansı subyekt tərəfindən həyata keçirilir?

A) Kargüzarlıq xidməti

B) Ümumi şöbə

C) İnformasiya sektoru

D) İnsan resursları şöbəsi

E) Daxili nəzarət xidməti

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

130. Digər icraçı (icraçılar) sənədin icrası ilə əlaqədar rəhbərliyə məlumat üçün hazırlanmış arayışla razı olmadıqda, bu halda əsas icraçı...

A) Ayrıca akt tərtib edir və rəhbərliyi məlumatlandırmaq üçün kargüzarlıq xidmətinə təqdim edir

B) Ayrıca arayış tərtib edir, həmin arayışı birbaşa və bilavasitə rəhbərinə təqdim edir

C) Ayrıca arayış tərtib edir və rəhbərliyi məlumatlandırmaq üçün katibliyə təqdim edir

D) Ayrıca protokol tərtib edir və rəhbərliyi məlumatlandırmaq üçün kargüzarlıq xidmətinə təqdim edir

E) Ayrıca arayış tərtib edir və rəhbərliyi məlumatlandırmaq üçün kargüzarlıq xidmətinə təqdim edir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın

aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

131. Dövlət gerbi əks olunmuş möhürü olmayan təşkilatlarda hansı möhürdən istifadə olunur?

A) Təşkilatın adı əks olunmuş istənilən möhürdən

B) Xüsusi möhürdən

C) Yardımçı möhürdən

D) Ümumi möhürdən

E) Əsas möhürdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

132. Dövlət orqanları istisna olmaqla, digər müraciətə baxan subyektlərdə korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" AR Qanunu ilə müəyyən edilmiş qaydada hansı müddətdə baxılır?

A) 10 iş günü

B) 30 iş günü

C) 15 iş günü

D) 20 iş günü

E) 25 iş günü

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

133. Dövlət orqanlarında korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə AR-nın hansı Qanununa müvafiq olaraq baxılır?

A) "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa

B) "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa

C) "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa

D) "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa

E) "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

134. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektron sənədin mühafizəsi təmin edilir:

A) "Elektron Azərbaycan" Dövlət Proqramının tələblərinə uyğun olaraq

B) "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" AR Qanununa və "İdarələrarası elektron sənəd dövriyyəsi haqqında Əsasnamə"yə uyğun olaraq

C) "Elektron ticarət haqqında" AR Qanununa və "İdarələrarası elektron sənəd dövriyyəsi haqqında Əsasnamə"yə uyğun olaraq

D) "Elektron imza və elektron sənəd haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" AR Qanunlarına uyğun olaraq

E) "Elektron imza və elektron sənəd haqqında" AR Qanununa və "İdarələrarası elektron sənəd dövriyyəsi haqqında Əsasnamə"yə uyğun olaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

135. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında elektron sənədlərin hazırlanmasına dair ümumi tələblərdən deyildir:

A) Elektron sənəd "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən tələblərə cavab verməlidir

B) Elektron sənəd "Unicode" standartını, "UTF-8" formatını dəstəkləməlidir

C) Elektron sənədə qoşulan bütün əlavələr həmin sənədi təsdiq etmək səlahiyyəti olan şəxsin elektron və ya gücləndirilmiş elektron imzası ilə təsdiqlənməlidir

D) Elektron sənədin cədvəl, təqdimat, mətn, qrafik və arxivləşdirmə redaktorlarında oxunma və redaktə olunma imkanları olmalıdır

E) Elektron sənədin razılaşdırılması müvafiq vəzifəli şəxsin elektron və ya gücləndirilmiş elektron imzasının əlavə edilməsi yolu ilə həyata keçirilməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

136. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlıq hansı dildə aparılır?

A) İngilis dilində

B) Təşkilatın beynəlxalq əlaqələrindən asılı olaraq müəyyənləşdirilən dildə

C) İngilis, rus və Azərbaycan dillərində

D) Azərbaycan Respublikasının dövlət dilində

E) İngilis və Azərbaycan dillərində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

137. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənəd hansı qaydada təsdiq olunur (tam və düzgün cavab)?

A) Təsdiqetmə qrifi ilə və ya müvafiq sərəncam mahiyyətli sənəd qəbul etməklə

B) Müvafiq sərəncam mahiyyətli sənəd qəbul etməklə

C) Təsdiqetmə qrifi ilə

D) Müvafiq protokol tərtib edilərək akt qəbul etməklə

E) Müvafiq protokol və ya akt tərtib edilərək kollegial qərar qəbul etməklə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın

aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

138. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənədin icra müddəti nə zamandan hesablanır?

A) Sənədin rəsmi şəkildə qeydiyyata alındığı andan

B) Sənədin təsdiqləndiyi andan

C) Sənədin təşkilata daxil olduğu vaxtdan

D) Sənədin icraya verildiyi andan

E) Sənədin təşkilata göndərildiyi vaxtdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

139. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənədin imzalanması ilə bağlı mülahizələrdən hansı yanlışdır?

A) Kollegial orqanların sənədləri, habelə məzmununa görə iki və ya daha artıq şəxsin məsuliyyət daşıdığı sənədlər müvafiq olaraq iki və ya daha artıq imza ilə rəsmiləşdirilir

B) Kollegial orqanların sənədlərində imzalar şəxslərin tutduğu vəzifələrə uyğun olan ardıcıllıqla bir-birinin altında (vəzifələrin adları biri digərindən iki-dörd sətirarası intervalla ayrılmaqla) yerləşdirilir

C) Əgər sənədi eyni dərəcəli iki və ya bir neçə vəzifəli şəxs imzalayırsa, onların imzaları tutduğu vəzifələrə uyğun olan ardıcıllıqla bir-birinin altında yerləşdirilir

D) Komissiyanın tərtib etdiyi sənədlər imzalanarkən sənədi tərtib etmiş şəxslərin vəzifələri deyil, komissiya üzvləri arasında vəzifələrin bölgüsü göstərilir

E) Sənədin tətbiqi üçün əlavə tədbirlərin həyata keçirilməsi tələb olunduğu hallarda, həmin sənədin təsdiq edilməsi sərəncam mahiyyətli sənəd qəbul edilməsi vasitəsilə həyata keçirilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

140. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənədin qeydə alınması dedikdə nə nəzərdə tutulur?

A) Qeyd olunan bütün təkliflərin, tapşırıqların və məsələlərin vaxtında və keyfiyyətli icrasına daim nəzarət edilməsi

B) Sənədin üzərinə qeydiyyat nömrəsinin qoyulması və qeydiyyat vərəqəsində həmin sənəd haqqında zəruri məlumatların göstərilməsi

C) Sənədin üzərində məzmunu ilə bağlı mühüm rekvizitlərin göstərilməsi

D) Qeydiyyat vərəqəsində həmin sənəd haqqında zəruri məlumatların göstərilməsi və imzalanması

E) Sənədin üzərinə qeydiyyat nömrəsinin qoyularaq icraçılara çatdırılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

141. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənədlərin dövriyyəsinin təşkili ilə bağlı hansı müddəa düzgün deyil?

A) Şəxsi korrespondensiya istisna edilməklə, bütün zərflər açılır. Bu zaman zərflərin bütövlüyü və içində sənədlərin mövcudluğu yoxlanılır

B) Bütün daxil olan sənədlərdə birinci səhifənin üz tərəfinin aşağı sol küncündə qeyd ştampı vurulur

C) Daxil olmuş sənədlər qeydə alındıqdan və qeydiyyat ştampında nömrə qoyulduqdan sonra baxılmaq üçün təşkilatın və ya struktur bölməsinin rəhbərliyinə verilir

D) Sənədi göndərənin ünvanını və ya sənədin göndərilmə, alınma tarixini ancaq zərfə görə müəyyən etməyin mümkün olduğu hallardan başqa, zərflər məhv edilir

E) Vəzifəli şəxslərin ünvanına olan sənədlər, bir qayda olaraq, bilavasitə həmin şəxslərə verilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

142. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənədlərin icrasına nəzarətin təşkiliylə bağlı aşağıdakı müddəalardan hansı biri doğrudur?

A) Sənədlərin icrasına nəzarət, nəzarət vərəqələrində qeydlər edilməməklə aparılır

B) Sənəd dövriyyəsi böyük olan təşkilatlarda nəzarət daxil olan, göndərilən və daxili sənədlərin qeydiyyat kitablarında həyata keçirilir

C) Əgər icra sənədləşdirilmişdirsə, bu barədə nəzarət vərəqəsinin "icra haqqında qeyd" sütununda məlumat yazılır

D) Sənədlərin icrasının gedişi haqqında məlumat "İcra nəticələri" sütununda qeyd edilir

E) Sənəd ancaq orada qaldırılan məsələlər həll olunduqda və sənəd göndərənə mahiyyətcə cavab verildikdə icra edilmiş sayılır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

143. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənədlərin mətninin birinci hissəsində hansı məlumatlar verilir?

A) Sənədin hazırlanması üçün əsas götürülmüş faktların və hadisələrin təsviri

B) Nəticələr, təkliflər, qərarlar və sərəncamlar

C) Nəticələr və təkliflər

D) Hərəkətlərin xarakteri, icraçılar və başqa meyarlar

E) Təkliflər, xüsusi qeydlərin izahı, habelə qərarlar və sərəncamlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

144. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənədlərin və onlarda olan tapşırıqların icrasına nəzarəti hansı subyektlər həyata keçirir?

A) Kargüzarlıq xidmətinin rəhbəri

B) Təşkilatların, struktur bölmələrinin rəhbərləri

C) Struktur bölmələrinin əməkdaşları

D) Təşkilatların, struktur bölmələrinin icraçıları

E) Struktur bölmələrinin məsul şəxsləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

145. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında yazılı cavab hazırlanması tələb olunmursa, təşəbbüs sənədində hansı qeydlər qoyulur?

A) Məsələnin nə vaxt, kim tərəfindən və necə həll olunması haqqında konkret qeyd

B) Məsələnin araşdırılması və müvafiq işlərin görülməsi haqqında qeyd

C) Məsələnin nə vaxt və hansı aidiyyəti orqana göndərilməsi haqqında konkret qeyd

D) Məsələnin mahiyyəti, məzmunu və müvafiq işlərin görülməsindən əldə olunan nəticələr haqqında qeyd

E) Məsələnin icra müddətində başa çatdırılması haqqında konkret qeyd

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

146. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında sənədlərin dövriyyəsinin təşkili ilə bağlı aşağıdakı mülahizələrdən biri doğru deyildir:

A) Sənədin müştərək icraçıları əsas icraçıya lazım olan materiallar (məlumatlar) təqdim etməli və digər zəruri kömək göstərməlidirlər. İcraçılar sənədlərin vaxtında və keyfiyyətli hazırlanması üçün eyni dərəcədə məsuliyyət daşıyırlar

B) Daxil olmuş sənədlərin rəhbərliyin göstərişi ilə bir struktur bölməsindən digərinə verilməsi struktur bölmələrin rəhbərləri tərəfindən həyata keçirilir ki, bu barədə də qeydiyyat vərəqələrində və müvafiq kitabda qeyd aparılır

C) Göndərilən sənədin tərtibi, razılaşdırılması, rəsmiləşdirilməsi, qeydə alınması (qeydə alınmalı olan sənədlər barəsində) və göndərilməsi sənədlərin hazırlanması prosesini təşkil edir

D) İlkin qaydada tanış olmaq və razılaşdırılmaq üçün sənədin layihəsi çoxaldıla və eyni zamanda onun hazırlanmasında iştirak edən bütün təşkilatlara verilə bilər

E) Sənədi imzalanmaq üçün verməzdən əvvəl icraçı onun məzmununu, tərtibinin düzgünlüyünü, lazımi imzaların və əlavələrin mövcudluğunu yoxlamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

147. Dövlət orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının struktur bölmələrində sənədlərin icrasına nəzarəti kim həyata keçirir?

A) Struktur bölmələrinin kargüzarlıq üçün məsul olan əməkdaşları

B) Kargüzarlıq xidmətinin rəhbəri

C) Nəzarət xidmətinin məsul olan əməkdaşları

D) Təşkilatın vəzifəli şəxsləri

E) Struktur bölmələrin rəhbərləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın

aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

148. Elektron sənəd formasında göndərilən müraciət müvafiq qanunvericiliyə görə nə ilə təsdiq olunmalıdır?

A) Əl imzası ilə

B) Möhürlə

C) Sadə imza ilə

D) Elektron imza ilə

E) Ştrixlə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

149. Elektron sənədlərlə bağlı kargüzarlığın aparılmasının xüsusiyyətlərinə aid olan hansı bənd yanlışdır?

A) "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsi ilə müəyyən edilmiş hallarda alan elektron sənədi göndərən tərəfindən göndərilməmiş hesab etməlidir

B) Göndərən tərəf elektron sənədin qəbul edildiyi barədə elektron bildirişi alanadək, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü maddəsinə əsasən elektron sənəd alınmış hesab olunur

C) Elektron sənədin göndərilməsindən sonra göndərənin göstərdiyi və ya tərəflərin razılığı ilə müəyyən edilmiş müddət ərzində bildiriş alınmadıqda, göndərən bu barədə alanı məlumatlandırır və digər rabitə vasitələrindən istifadə etməklə elektron sənədin məzmununu ona çatdırır

D) Elektron sənəd kimi qeydə alınmış sənəd kağız daşıyıcıda daxil olduqda, onun üzərinə elektron sənədin qeydiyyat nömrəsini və tarixini əks etdirən ştamp vurulur

E) Elektron sənəd dövriyyəsi sistemi tətbiq olunan təşkilatlarda alınan və göndərilən elektron sənədlərin hərəkəti, həmçinin təşkilatdaxili yazışmalar sistem vasitəsilə qeydə alınır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın

aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

150. Əmrin hazırlanması və tərtib edilməsi ilə bağlı müddəalardan biri yanlışdır:

A) Əmrin sərəncam hissəsi mətn dayandırılmadan "əmr edirəm" sözləri ilə başlanır. Nəzərdə tutulan fikirlər ərəb rəqəmləri ilə nömrələnən bəndlər üzrə yerləşdirilir

B) Sərəncam hissəsində hər bənd struktur bölməsinin konkret icraçısının və ya vəzifəli şəxsin adının və soyadının göstərilməsi ilə başlanır

C) Əmrin layihəsinin son variantına ancaq əmrin icraçısı və kargüzarlıq xidmətinin rəhbəri düzəlişlər edə bilər

D) Əmri hazırlayarkən icraçı onu struktur bölmələrinə və tabelikdə olan təşkilatlara göndərmək zərurətini və əmrin tirajını müəyyən edir

E) Əmrin mətni əlaqədar struktur bölmələri ilə, lazımi hallarda isə tabelikdə olan əlaqədar təşkilatlarla razılaşdırılır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

151. Əmrin mətni hansı hissədən və ya hissələrdən ibarət olur?

A) Yalnız şərh hissəsindən

B) Şərh və sərəncam hissələrindən

C) Yığcam, şərh və sərəncam hissələrindən

D) Giriş və əsas hissələrdən

E) Yalnız sərəncam hissəsindən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

152. Əmrin sərəncam hissəsində aşağıdakılardan hansı qeyd edilir?

A) Əmrin qəbul edilməsi tarixi

B) Əmrin qeydiyyat nömrəsi

C) Əmrin qəbul edilməsinin proseduru və icrası

D) Əmr verilməsi üçün əsas götürülən faktlar

E) Görülməli tədbirlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

153. Əsas icraçı sənədin icrası ilə əlaqədar rəhbərliyə məlumat üçün hazırlanmış arayışı kimlərlə razılaşdırmalıdır?

A) Bilavasitə rəhbəri ilə

B) Məsul şəxslərlə

C) Vəzifəli şəxslərlə

D) Birbaşa rəhbəri ilə

E) Digər icraçı (icraçılar) ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

154. Eyni məsələyə dair iki və daha çox şəxsin birgə müraciəti, yaxud ictimai iştirakçılığın həyata keçirilməsi ilə əlaqədar olan müraciətlər necə adlanır?

A) Şifahi müraciətlər

B) Xüsusi müraciətlər

C) Elektron müraciətlər

D) Fərdi müraciətlər

E) Kollektiv müraciətlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

155. Fiziki və hüquqi şəxslərin müraciətlərinə baxmaq və qərar qəbul etmək səlahiyyəti olan dövlət və bələdiyyə orqanları, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları:

A) Müraciət edən şəxs

B) Müraciətə baxan subyekt

C) Müraciətə baxan subyektin vəzifəli şəxsi

D) Müraciət edən şəxsin qanuni nümayəndəsi

E) Müraciətə baxan subyektin canlı yayımlanan teleradio proqramındakı nümayəndəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanunu

156. Hansı halda sənədlər sifarişli məktubla göndərilir?

A) Yuxarı dövlət orqanlarına göndərildikdə

B) İcra üçün konkret müddət təyin edildikdə

C) Beynəlxalq təşkilatlara təqdim edildikdə

D) Mühüm zərurət olduqda

E) Cavab məktubu olduqda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

157. Hansı hallarda sənədin təsdiq edilməsi sərəncam mahiyyətli sənəd qəbul edilməsi vasitəsilə həyata keçirilir?

A) Sənədin tətbiqi üçün xüsusi göstərişin lazım olduğu hallarda

B) Sənədin icrası üçün konkret icraçının müəyyənləşdirilməsi tələb olunduğu hallarda

C) Sənədin tətbiqi üçün əlavə tədbirlərin həyata keçirilməsi tələb olunduğu hallarda

D) Sənədin icrası üçün maliyyə vəsaitlərinin tələb olunduğu hallarda

E) Sənədin qeydə alınmasının lazım olduğu hallarda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

158. Hansı təşkilatlarda kargüzarlıq mərkəzləşdirilməmiş qaydada aparılır?

A) Strukturu mürəkkəb, sənəd dövriyyəsi isə ildə 25000 sənəddən çox olan, habelə struktur bölmələri ayrı-ayrı ərazilərdə yerləşən təşkilatlarda

B) Struktur bölmələrinin sayı az, sənəd dövriyyəsi isə ildə 25000 sənədə qədər olan təşkilatlarda

C) Struktur bölmələrinin sayı az, sənəd dövriyyəsi isə ildə 25000 sənəddən çox olan, habelə struktur bölmələri ayrı-ayrı ərazilərdə yerləşən təşkilatlarda

D) Strukturu mürəkkəb, sənəd dövriyyəsi isə ildə 25000 sənəddən az olan təşkilatlarda

E) Strukturu sadə, habelə struktur bölmələri ayrı-ayrı ərazilərdə yerləşən təşkilatlarda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

159. Hansı təşkilatlarda kargüzarlıq mərkəzləşdirilmiş qaydada aparılır?

A) Strukturu mürəkkəb, sənəd dövriyyəsi isə ildə 25000 sənəddən çox olan, habelə struktur bölmələri ayrı-ayrı ərazilərdə yerləşən təşkilatlarda

B) Strukturu sadə, habelə struktur bölmələri ayrı-ayrı ərazilərdə yerləşən təşkilatlarda

C) Struktur bölmələrinin sayı az, sənəd dövriyyəsi isə ildə 25000 sənəddən çox olan, habelə struktur bölmələri ayrı-ayrı ərazilərdə yerləşən təşkilatlarda

D) Strukturu mürəkkəb, sənəd dövriyyəsi isə ildə 25000 sənəddən az olan təşkilatlarda

E) Struktur bölmələrinin sayı az, sənəd dövriyyəsi isə ildə 25000 sənədə qədər olan təşkilatlarda

Testin çətinlik dərəcəsi: orta

